# 44 günlük müharibə - zəfərə gedən yol və yeni reallıqlar

*Birinci Qarabağ müharibəsində torpaqlarının təxminən 20 faizini itirmiş Azərbaycan 1994-cü ildə Bişkekdə imzalanmış atəşkəs razılaşmasından sonra 25 ilə yaxın müddət ərzində Ermənistan ilə uzunmüddətli sülh danışıqları apardı. Lakin bu danışıqlar 2018-ci ildə Ermənistanda inqilab yolu ilə hakimiyyətə gəlmiş baş nazir Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi çıxışları və digər təxribatçı fəaliyyətləri nəticəsində pozuldu. 25 sentyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının videoformatda keçirilən 75-ci sessiyasında çıxış edərkən 2020-ci il iyulundan sentyabrınadək Ermənistana hərbi yük təyyarələri ilə min tondan artıq hərbi avadanlığın daşındığını bəyan etdi. Azərbaycan Respublikasının Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozması ilə bağlı bəyanat yaydı. Həmin gün səhər saatlarında Ermənistan silahlı qüvvələrinin təmas xəttində Azərbaycan ordusunun mövqelərinə və yaşayış məntəqələrinə hücuma keçməsindən sonra, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev əks-hücum əməliyyatına başlamaq haqqında qərar verdi.*

Əməliyyatların gedişində Azərbaycan az itki verməklə böyük nailiyyətlər qazandı. Silahlı qüvvələrimizin artilleriya, minaatan və idarə olunan raketlərlə Ermənistan ordusuna endirdiyi zərbələr nəticəsində düşmən ordusunda kütləvi fərarilik halları və ruh düşkünlüyü yarandı. Hərbi əməliyyatların sonrakı gedişatında 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhəri işğaldan azad olundu. Ümumiyyətlə, 2020-ci ilin sentyabrın 27-də başlayan və 44 gün davam edən döyüş əməliyyatları zamanı Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa şəhəri, Xocavənd, Ağdərə və Xocalı rayonları isə qismən azad edildi. Azərbaycanın möhtəşəm qələbəsi sayəsində Ermənistan məğlubiyyəti qəbul etməli oldu və işğal etdiyi ərazilərdən geri çəkildi. Noyabrın 10-da Rusiyanın vasitəçiliyi ilə Ermənistan kapitulyasiya aktı imzaladı və bununla da Azərbaycan böyük qələbə qazanaraq Ermənistanın 30 illik işğalına son qoydu. Ermənistan silahlı qüvvələri Ağdam, Laçın və Kəlbəcəri döyüşsüz tərk etməli oldu.

Qələbənin əldə edilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti, ordunun hərbi qüdrətinin artması və xalqın böyük əzmi həlledici rol oynadı.

"Biz düşməni torpağımızdan qovduq və yeni reallıq yaratdıq. Bu reallığı hamı etiraf etməlidir", deyə Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 1-də xalqa müraciətində bildirdi. Bu yeni reallıq Azərbaycanın işğaldan azad edilmiş əraziləri bərpa etməsini və məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıtmasını şərtləndirir.

Azərbaycan ordusunun döyüş meydanında əldə etdiyi qələbələr regionda yeni reallıqlar yaratdı. Birinci Qarabağ savaşı zamanı ölkənin digər bölgələrində məskunlaşan 1 milyona yaxın azərbaycanlı işğaldan azad edilmiş Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Şuşada və digər ərazilərimizdə infrastruktur yenidən qurulduqdan və bərpa edildikdən sonra öz doğma torpaqlarına qayıdacaqlar.

Yeni regional reallıqlar arasında Naxçıvanı Qərbi Azərbaycan vilayətləri ilə birləşdirən dəhliz də vardır ki, bu dəhliz Prezident İlham Əliyevin atəşkəs sazişi üzrə danışıqlarda irəli sürdüyü xüsusi şərtlərdən biridir. Sovet dövründə Naxçıvanla Azərbaycan arasında dəmir yolu və avtomobil yolları mövcud idi. Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində kəsilmiş bu əlaqə bərpa olunacaq.

Sözügedən dəhlizin açılması Türkiyə ilə Azərbaycan arasında quru əlaqələrinin yaradılmasına imkan verəcək. Prezident İlham Əliyevin bildirdiyi kimi, Ermənistan da əgər istəsə, İran, Rusiya və Türkiyə ilə birlikdə bu dəhlizdən istifadə edə biləcək.

Birinci Qarabağ müharibəsi (1988-1994) zamanı işğal olunmazdan əvvəl 700 mindən çox azərbaycanlının yaşadığı keçmiş Dağlıq Qarabağ bölgəsinin ətrafındakı 7 rayon Ermənistanın nəzarəti altında olduğu dövrdə tamamilə dağıdılmış və yerlə-yeksan edilmişdir. Son otuz ildə bu ərazilərdə yaşayış və inzibati binalarla yanaşı, rəsmi mənbələrə görə, 700-ə yaxın tarixi və mədəniyyət abidəsi, 927 kitabxana, 808 mədəniyyət mərkəzi, 85 musiqi və incəsənət məktəbi, 100000-dən çox maddi-mədəniyyət nümunəsinin olduğu 22 muzey, 4 rəsm qalereyası, 4 teatr, 2 konsert zalına zərər dəymiş və ya dağıdılmışdır.

Buna baxmayaraq, Azərbaycan işğaldan azad edilmiş torpaqlarda həyatı yenidən bərpa etməkdə israrlıdır. Prezident cənab İlham Əliyevin bəyan etdiyi kimi, "bu regionlar, bütün rayonlarımız bərpa olunacaq, vətəndaşlarımız üçün normal həyat şəraiti yaratmaq üçün bütün addımlar atılacaqdır. İndi bərpa dövrü başlayır. Genişmiqyaslı quruculuq işləri aparılacaq. Əlbəttə ki, Azərbaycan şirkətləri ilk növbədə bu işlərdə iştirak edəcəklər. Bizim üçün dost olan ölkələrin şirkətlərini də biz dəvət edəcəyik. Daha doğrusu, artıq dəvət etmişik."

"Biz artıq Britaniya şirkətləri ilə təmaslara başlamışıq. Onlardan biri işğaldan azad edilmiş ərazilərdə şəhərsalmaya, infrastrukturun inkişaf etdirilməsinə cəlb olunub və mən ümid edirəm ki, onların sayı daha çox olacaq, çünki orada çox işlər görülməlidir". Bu sözləri isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il fevralın 9-da Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət naziri xanım Vendi Morton ilə görüşdə səsləndirmişdir.

Analoji əməkdaşlıq perspektivlərinə Xorvatiya, İtaliya, Macarıstan kimi digər Avropa ölkələri də cəlb olunmaqdadırlar.

Azərbaycan cəmi 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanını inşa edərək istismara vermişdir. Həmçinin işğaldan azad olunmuş əraziləri birləşdirən avtomobil və dəmir yollarının tikintisinə start verilmiş və işlər sürətlə davam edir. 2021-ci ilin 26 oktyabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngəzur dəhlizinin, yeni Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoymuşlar. Azərbaycan Naxçıvana magistral və dəmir yolu xətti çəkməyi planlaşdırır ki, bu da ölkəni əsas strateji müttəfiqi Türkiyə ilə birləşdirəcək. İşğaldan azad olunmuş ərazilərdə hazırda "Ağıllı kənd", "Ağıllı şəhər" layihələrinin həyata keçirilməsi bölgə üçün analoqu olmayan yeni imkanlar və perspektivlər vəd edir. Bütün bunlar, həm Azərbaycan, həm də ümumilikdə region ölkələri üçün yeni inkişaf göstəricisidir.

Azərbaycanın müharibədən sonrakı planlarında ermənilər tərəfindən dağıdılmış və təhqir olunmuş mədəniyyət və dini abidələrin bərpasına xüsusi önəm verilir. Qarabağ bölgəsində son üç onillikdə təhqir olunmuş tarixi məscidlərin görüntüləri Azərbaycan xalqını hiddətləndirdi. Fransa, ABŞ və Rusiyadan olan beynəlxalq vasitəçilər də əvvəllər həmin bölgələrdə faktaraşdırıcı missiyalar həyata keçirmiş, lakin heç vaxt həmin dini abidələrin vəziyyəti ilə bağlı məsələ qaldırmamışdılar.

Azərbaycan çoxkonfessiyalı ölkə olaraq işğaldan azad edilmiş ərazilərdə təkcə müsəlman abidələrini deyil, xristian və digər dinlərə aid abidələri də bərpa etməyi planlaşdırır. Azərbaycan UNESCO və digər beynəlxalq təşkilatları Ermənistanın işğaldan azad edilmiş ərazilərə vurduğu maddi ziyanı qiymətləndirməyə və mədəni irsin bərpasında iştirak etməyə dəvət edir.

Prezident cənab İlham Əliyevin dediyi kimi, "Azərbaycan bütün dünyaya göstərdi ki, işğal altında olan torpaqlarını öz gücü ilə, öz qüdrəti ilə azad etməyə qadirdir" və qısa müddətdə irimiqyaslı quruculuq işləri həyata keçirməklə təkcə ölkənin deyil, həm də bütövlükdə regionun inkişafına mühüm töhfə verə bilər.

Bu qələbənin əldə olunmasında hər birimiz canını fəda edən və igidlik göstərən şəhidlərimizə və qazilərimizə borcluyuq. Onların bu şücaəti gələcək nəsillərə ötürülməklə tarix boyu yaddaşımızdan silinməyəcəkdir. O cümlədən qəhrəman şəhidimiz, ədliyyənin qüruru şəhid Ruhin Xəlilov da, vətən sevgisini öz həyatından, arzularından və ailəsindən üstün tutduğu üçün onunla və bütün şəhidlərimizlə bu gün hər bir vətəndaşımız, eləcə də ədliyyə əməkdaşları fəxr və qürur duyur. Bizim üzərimizə düşən ən böyük vəzifə şəhidlərimizin şərəfli adını qorumaq və yaşatmaqdır. Bu istiqamətdə ölkə Prezidentinin rəhbərliyi altında görülən mühüm işləri dəstəkləməklə yanaşı, Ədliyyə Nazirliyi tərəfindən də müvafiq işlər görülür və bundan sonra da davam etdiriləcəkdir. Biz həm xidməti vəzifəmizdə, həm də şəxsi həyatımızda bu məsələlərə səlahiyyətimiz və imkanlarımız çərçivəsində daim diqqətlə yanaşacağıq.



**İsgəndər ORUCOV,**
**Ədliyyə Nazirliyinin İmişli Regional Ədliyyə İdarəsinin rəis müavini.**